Mən Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə idim və o, bir zibilxananın yanına gəldi və ayaq üstə su başına çıxdı (idrar etdi)

Huzeyfədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Mən Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə idim və o, bir zibilxananın yanına gəldi və ayaq üstə su başına çıxdı (idrar etdi) və mən kənara çəkildim. O, dedi: "Yaxınlaş". Mən onun dabanın arxasında dayanana qədər ona yaxınlaşdım və o, dəstəmaz alıb xuflarına (dəridən corabların üzərinə) məsh çəkdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Huzeyfə bin Əl-Yəmən (Allah hər ikisindən razı olsun) xəbər verir ki, o, Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə idi və o (Allahın salavatı və salamı onun üzərinə olsun) su başına çıxmaq (idrar etmək) istədi və evlərdən süpürülmüş zibil və tullantıların atıldığı bir zibilxanaya daxil oldu. Ona görə də kiçik ehtiyacını ayaq üstə ödədi, halbuki, adətən otururaraq edirdi. Huzeyfə ondan uzaqlaşdı və o, (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: “Yaxın gəl". Huzeyfə, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) bu halda görünməsinə maneə olmaq üçün onun arxasında - ayaqlarının arxasında dayanana qədər ona yaxınlaşdı. Sonra o, (Allahın salavatı və salamı onun üzərinə olsun) dəstəmaz aldı və ayaqlarını yuyarkən xuflarına -nazik dəridən və buna bənzər şeylərdən hazırlanmış, ayağa geyinilən və topuqları örtən şey- məsh çəkməklə kifayətləndi və onları çıxarmadı.

http://sunnah.global/hadeeth/az/show/3075